BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2008

# ƏDƏBİYYATŞÜNASLIQ

## MİLLİ MƏTBUATIMIZIN BANİSİ, VÜQARI, QÜRURU

**İ.S.ƏLİYEVA**
***Bakı Dövlət Universitet***

*Milli mətbuatımızın yaranmasında görkəmli ziyalı, ictimai xadim, naşir Həsən bəy Zərdabinin misilsiz xidmətləri olmuşdur. Onun min bir əzablara qatlaşıb çap etdirdiyi «Əkinçi» qəzeti Azərbaycanda ana dilində mətbuatın əsasını qoymuşdur.*

**HEYDƏR ƏLİYEV**

1907-ci ildə Əbdürrəhim bəy Haqverdiyev «Ağa Məhəmməd şah Qacar» faciəsinin uğurlu tamaşasından sonra onu şöhrətpərəstlikdə ittiham edən bir tənqidçiyə cavabında yazmışdı: «Mənim şöhrətə ehtiyacım yoxdur və nə qədər millətə qələm ilə qulluq eləsəm də, mərhum Həsən bəy Məlikovun elədiyi xidmətlərin yüzdə birini edə bilməyəcəyəm; nə qədər Həsən bəy şöhrət qazanmışdır, onun yüzdə birini də mən qazanaram».

Böyük yazıçının millətə xidmət etməyin və bunun müqabilində halal şöhrət qazanmağın nümunəsi kimi H.B.Zərdabinin yada salınması təsadüfi deyildi. H.B.Zərdabi bu haqqı, şöhrəti bütün fədakar həyatı və cəfakeş fəaliyyəti ilə qazanmışdır. Hər bir xalqın tarixinə onun mədəni həyatının ən böyük hadisələrindən sayılan teatr və mətbuatın yaradıcılarının adı qızılı hərflərlə yazılır. Azərbaycan, bəlkə də dünyada yeganə ölkədir ki, onun teatrını, mətbuatını yaratmaq şərəfi eyni bir şəxsə – məhz əbədiyaşar Həsən bəy Zərdabiyə nəsib olmuşdur.

Həsən bəy Zərdabinin yaşayıb fəaliyyət göstərdiyi dövr XIX əsrin 1-ci yarısında və XX əsrin əvvəllərində olmuşdur. Zərdabinin ictimai-siyasi və fəlsəfi görüşləri məhz bu dövrdə meydana gəlib formalaşmışdır. Bu dövrün xarakterik cəhətlərindən biri də Azərbaycanda maarif və mədəniyyətin inkişafı çəhəsində müəyyən irəliləyişlərin özünü göstərməsi, ibtidai məktəblərin açılması idi. Azərbaycanda məktəblərin açılması ilə yanaşı digər sahələrdə də irəliləyişlər var idi. 1873-cü ildə Azərbaycan milli teatrının və 1875-ci ildə Milli mətbuatın əsası qoyulur. XIX əsrin II yarısında «Əkinçi», «Ziyayi - Qafqaziyyə», «Kəşkül» qəzetləri nəşrə başlayır.

Belə bir vaxtda xalqın, millətin qəflət yuxusundan oyanmasında, dünyagörüşünün formalaşmasında Həsən bəyin böyük rolu olmuşdur. Bu dünyagörüşü öz ideya mənbələri etibarilə istər Şərqin, istərsə də Qərbin mütərəqqi ictimai-siyasi, fəlsəfi və ədəbi ənənələrinə gedib çıxır. Bu ənənələr içərisində Azərbaycan xalqının uzun illərdən bəri formalaşmaqda olan ictiami-siyasi və fəlsəfi fikrinin nailiyyətləri xüsusi yer tutur. Zərdabi Bəhmənyardan tutmuş M.F.Axundova qədərki Azərbaycan mütəfəkkirləri ilə ideya əlaqəsində olmuşdur. Lakin Zərdabinin bir mütəfəkkir kimi yetişməsində, bir alim və maarifçi kimi püxtələşməsində,

dünyagörüşünün formalaşmasında XIX əsrdə yaşayıb-yaratmış görkəmli nümayəndələrin böyük rolu olmuşdur.

H.B.Zərdabinin əsərləri və bütün yaradıcıdığı ilə dərindən tanışlıq onun bu görkəmli mütəfəkkirlərin mütərəqqi ideyaları ilə nə qədər dərindən bağlı olduğunu, daim bu ideyalardan qida aldığını bir daha sübut edir. Zərdabşünas professor İzzət Rüstəmovun dediyi kimi «...buna görə də biz Bakıxanovu, Vazehi və Axundovu Zərdabinin bilavasitə sələfləri adlandıra bilərik. Öz müasirlərinin mütərəqqi fikirlərindən qaynaqlanan, elmin, maarifin, mədəniyyətin inkişafında böyük xidmətləri olan H.B.Zərdabinin inkişafında bu ideyaların böyük təsiri olmuşdur». Zərdabiyə görə elmdən bixəbər insan qaranlıqda gəzən kimidir. Zərdabi belə hesab edirdi ki, insanın dünyanı dərk etməsinin açarı əql və elmdədir, buna görə də o, yazırdı: «Əql və elmlə insan dünyanı tamam təsərrüf edə bilər. Əql və qanacağın artıq olmağı elm təhsil etmək ilədir». Zərdabi elmin coşğun inkişafını,onun geniş qol-budaq atmasını arzu edirdi, buna görə də deyirdi: «Elm gərək sel kimi axsın ki, hər istəyən ondan içib doya bilsin».

Öz xalqına sədaqətlə xidmət etmək, xalqı maarifləndirmək və onların ictimai şüurunu tərbiyə etmək, onlarda vətənpərvərlik hissini qüvvətləndirmək, azadlıq hərəkatını canlandırmaq məqsədləri Həsən bəy Zərdabini Azərbaycan dilində birinci qəzet yaratmaq fikrinə saldı.

Doğma xalqını dərin bir məhəbbətlə sevən və yaşamağın mənasını vətənə, xalqına xidmət etməkdə görən Həsən bəy Zərdabi qəzet nəşr edib, onun vasitəsilə kütlə ilə danışmaq və öz fikirlərini onlara çatdırmaq, xalqı qabaqcıl rus mədəniyyəti və maarifi ilə tanış etmək və zəhmətkeşləri azadlığa çıxartmaq istəyirdi. Bu məqsədlə də Həsən bəy Zərdabi yazırdı: «Belə də qəzetə çıxarmaqdan savayı bir qeyri-əlac yoxdur ki, kağızın üstə yazılmışdoğru sözlər qapı-pəncərələrdən... mənzillərə çata bilsin. Heç olmaz ki, doğru söz yerdə qalsın. Hər evdə on qəzetə oxuyandan birisi oxuduğunu qansa, onların kədəri ilbəil artar, axırda o bənd ki, suyun qabağını kəsmişdi və suyu axmağa qoymayardı, rəxnə tapa rvə su mürur ilə bəndi uçurub aparar».

Zərdabi bilirdi ki, qəzet xalqın gözünü açar, onların maarif və mədəniyyətinin artmasına kömək edər və dünyada baş verən hadisələri, başqa ölkələrin mədəniyyətini qəzet vasitəsilə öyrənmək olar. Zərdabi dövrünün qabaqcıl adamlarını da millətin tərəqqisinə kömək etməyə çağıraraq yazırdı: «Pəs millət, dövlət qeyrəti çəkən qardaşlar gərək ki, xəyalat və qəvaid-mövhuməni kənara qoyub başarıq və qüvvə sahibləri, tərəqiyyat və məktəbxanalar bina edib, maşın və ustadlar gətirib və ətraflı olub, qandeyi-əbdanlarında lazım olan işləri əmələ gətirsinlər («Əkinçi» qəzeti, 1876-cı il, №7, s.2). Əlbəttə, ilk baxışda çox sadə görünən bu ideyanı həyata keçirmək o qədər də asan məsələ deyildi. Əvvəla, imperiya əsarətdə saxladığı türk-müsəlman xalqlarının hərtərəfli inkişafına təkan verə biləcək belə bir qüdrətli vasitənin meydana çıxmasına imkan yaratmaq istəmirdi. İkincisi isə, o zaman Azərbaycanda ana dilimizdə qəzet buraxmaq üçün maddi vəsait və kadr imkanları yox idi. O zamankı Bakı qubernatoru general Stariselskinin H.B.Zərdabiyə rəğbətli münasibəti sayəsində bəzi maneələri dəf etmək mümkün oldu.

Qəzet çapı işində bir çox texniki məsələləri həll etmək üçün Həsən bəyə şagirdləri yardımçı olurdular.

1875-ci il iyul ayının 22-də «Əkinçi» qəzetinin ilk nömrəsi çap olundu. Şagirdləri yay tətilində olduğundan qəzetin fəhləlik işini də Həsən bəy özü görürdü. 1877-ci ilin 29 sentyabrına qədər çap olunan

«Əkinçi»nin 1875-ci ildə 12, 1876-cı ildə 24, 1877-ci ildə 20 nömrəsi çıxmışdır. Qəzet ayda iki dəfə, 300-400 tirajla çap olunurdu. Qəzetin əksər materiallarını H.B.Zərdabi özü yazırdı. Bununla belə, onun ətrafına o dövr Azərbaycan maarifçilərinin əsas simaları olan ustadı M.F.Axundov, əqidə yoldaşları Seyid Əzim və Əhsənül-Qəvaid imzası ilə yazan Hacı Məmmədsadıq, tələbələri Nəcəf bəy Vəzirov və Əskərağa Adıgözəlov–Kolrani kimi ziyalılar toplvşmışdılar.

Əsas amalı yeni cəmiyyətin qurulması zərurətini təbliğ etmək olan Azərbaycan maarifçiliyinin bayraqdarına çevrilən «Əkinçi»nin ilk nömrəsində H.B.Zərdabi bu ideyanı ifadə edərək yazırdı: «Olmaz ki, dünyada dünyada həmişə bir qayda ilə rəftar olsun. Bizim zəmanə dəyişməyi tələb edir».

Min bir əzabla başa gələn «Əkinçi» qəzetinə istər Zərdabinin sağlığında, istərsə də vəfatından sonra münasibət bir mənalı olmamışdır.

Qəzetin tutduğu milli dirçəliş yolunun imperiya hakimiyyətini təmin etmədiyi aydın bir həqiqətdir. Ancaq təəssüf ki, xalqın haqq yoluna xəyanət edərək yadelli ağalarına yaltaqlanan mənsəbpərəstlər o zaman da tapılırdı. Xalqın gələcəyi üçün çalışan qələm sahiblərinin avamlığa, savadsızlığa, mövhumatçılığa qarşı «Əkinçi»nin səhifələrində apardığı mübarizə özlərini bu millətin övladı sayan bəzi şəxsləri narazı salırdı. Qəribədir ki, azadlıq və tərəqqi əleyhinə səs ucaldanlar sıravi xalq kütləsinin içərisində yox, «yüksək təbəqə»dən çıxan şair Həsən Qara Hadi, kapitan Sultanov, general Əlixanov kimi adamlar idi. Əlacsız qalan H.B.Zərdabi Həsən Qara Hadinin onun ünvanına göndərdiyi həcvi nəzərdə tutaraq yazırdı: «Fikrim budur ki, bizim Zərdabi kəndində bir daş qoydurub onun üstünə zikr olunan həcvi yazdırım ki, gələcəkdə bizim övladlar o yadigara baxıb bilsinlər ki, mən nə zəhmət ilə milləti- islamı qəflətdən ayıltmaq istəyən vaxtda neçə nadanlara rast gəlmişəm».

Beləliklə, hakimiyyəti təmsil edən qüvvələr bir tərəfdən, nadanlar və cəhalətpərəstlər digər tərəfdən H.B.Zərdabi və «Əkinçi»yə, qəzetin işıqlı ideyalarına qarşı düşmən münasibət bəsləmişlər. M.F.Axundov, S.Ə.Şirvani, Ə.Adıgözəlov, N.Vəzirov kimi ziyalılar Zərdabini hərtərəfli təqdir edir və bu mübariz insana mənəvi kömək göstərirdilər. Qəzeti «Şərqdən qərbə əxbar söyləyən», «səadətin mayası» adlandıran S.Ə.Şirvani nahaq yerə demirdi:

Dün sual etdi bir nəfər cahil: -
Ki, qəzetdən nədir bizə hasil?
Bu Həsən bəy nə istəyir bizdən?
Doldurub aləmi quru sözdən.

Belə ikili münasibət H.B.Zərdabinin vəfatından sonra da eyni ilə qalmışdı. Sadəcə bu dəfə H.B.Zərdabinin tərəfində duranlar və ona qarşı çıxanlar nəsil etibarilə dəyişmişdi. Firudin bəy Köçərli, Ceyhun Hacıbəyli kimi ziyalılar Zərdabinin və «Əkinçi»nin əsl dəyərini verən xadimlər idilər. Azərbaycan ictimai-siyasi, ədəbi-mədəni, mətbuat həyatındaparlaq iz qoymuş yazıçı-publisist, tərcüməçi-tədqiqatçı, naşir-redaktor, diplomat Ceyhun Hacıbəyli H.B.Zərdabiyə və onun «Əkinçi»sinə münasibətdə xüsusilə fərqlənirdi. Bir faktı demək kifayətdir ki, o, H.B.Zərdabinin vəfatından sonra hər il «Kaspi» qəzetində öz böyük müəlliminin xatirəsinə həsr olunmuş məqalə dərc etdirmişdir. Bu yazılar Azərbaycan mədəniyyəti tarixinə həsr olunmuş məqalə dərc etdirmişdir. Bu yazılar Azərbaycan mədəniyyəti tarixinə əbədi möhür vurmuş bir insan haq-

qında, sadəcə xoş xəbərlər deyil, həm də öz milli mənəvi dəyərlərinə laqeyd qalan Azərbaycan cəmiyyətinə kəskin etiraz idi.

«Yeddi il» adlı məqalədə («Kaspi», 1914, № 267) oxuyuruq: «Bu müsəlmanların mədəni-maarifçilik sahəsinin pioneri sayılan Həsən bəy Məlikovun vəfatının 7 ili tamam oldu. Bakılıların pafoslu nitqləri və təntənəli mərasimdə öz xadimlərini dəfn etdikləri həmin gündən vur-tut yeddi il keçir. Hələ o vaxtlar səslənən o çıxışlar mənim indi də qulağımdadır. Aman Allah, həmin nitqlərdən necə od-alov püskürürdü, çıxışlar ürəklərdə necə bir ümid çırağı yandırır, mərhumun xatirəsi minnətdarlıq hissi ilə yad edilirdi. Həmin gündən cəmi yeddi il ötmüşdür.

Nə olsun? O təmtəraqlı, ibarəli nitqlərdən nə qaldı? Deyəsən, külək elə həmin gün o çıxışları sovurub apardı. Həsən bəy təntənəli şəkildə dəfn olundu, onun haqqında iki-üç gün də orda-burda danışdılar, qəzet və jurnallar onun bioqrafiyasını dərc etdilər, portretini verdilər – vəssalam.

Müsəlman cəmiyyəti ona müxtəlif sahələrdə ilk addımı atmağı öyrədən, ona zəngin miras, irs qoyan, onu mədəni həyata alışdıran xadimi ilə beləcə üzülüşdü. Deyəsən, hər hey bitdi... Və müsəlmaq cəmiyyəti mərhumu tamamilə unutdu. Lakin bu hələ hamısı deyil».

«Həsən bəyin xatirəsi» («Kaspi» 1912, №269) adlı yazıda oxuyuruq: «Bu gün 28 noyabrdır. Düz 5 ildir ki, Qafqaz müsəlmanları Həsən bəy Məlikovu itirmişlər. 28 noyabr tarixi təkcə Həsən bəy Məlikovu itirdiyimiz matəm günü kimi yox, həm də mənəvi borcumuzu, əqli duyğularımızı oyadan, xatırladan bir gün kimi yaddaşlara həkk olunmalıdır. Və bu zaman Həsən bəyin özünəməxsus frazası rəhbər tutulmalıdır: «Bir damla su vaxt keçdikcə böyük qayanı deşir, söz də ələlxüsus, doğru söz insanın başını deşir, nəhayət, onun beyninə işləyir, ona təsir edir».

Ceyhun Hacıbəyli həmin məqsədlə Həsən Bəy Zərdabinin tarixi xidmətlərini sadalayır və sonda yazır: «Mən 28 noyabrı xatırlatmaqla cəmiyyətin diqqətini ona yönəltmək istərdim ki, mədəni həyatımızın pioneri sayılan Həsən bəyin xatirəsinin əbədiləşdirilməsi üçün onun əsasını qoyduğu və bütün ömrünü sərf etdiyi ideyaların həyata keçirilməsinə çalışaq».

Abdulla Şaiq H.B.Zərdabinin ölümü münasibətilə «İrşad» qəzetində dərc etdirdiyi şerdə onu «gəncliyin rəhbəri», «nur saçan ülkər», «dahi», «fədakar», «böyük insan» adlandırır. Haşım bəy Vəzirov H.B.Zərdabini «millət mücahidi» kimi xarakterizə edirdi. M.Ə.Rəsulzadə H.B.Zərdabiyə dəfn mərasimində «maarif mücahidi», «piri-rövşən» deyə xitab edirdi. «Azərbaycan mətbuatının piri» (Ankara, «Azərbaycan»jurnalı, 1952) yazısında isə M.Ə.Rəsulzadə qeyd edirdi: «H.B.Zərdabi səpdiyi toxumun səmərəsini görən uğurlu bir əkinçi kimi öyünərək və sevinclə bu dünyadan köçdü. O gün mətbuat qara geydi. Şairlər mərsiyə yazdı. Teatrlar pərdələrini endirdi.Bazarlar və dükanlar qapandı. Bir kəlmə ilə millət matəm tutdu».

Zərdabi məktəbi maarif təbliğatı aparan ən mühüm vasitələrdən biri hesab edirdi. Bunun üçün o, 1869-cu ildə Bakıda realnı gimnaziya kimi orta məktəbdə müəllimliyə başlamışdı. Böyük mütəfəkkir camaatı həvəsləndirmək üçün savadlı övladın, elmli adamın sənətdə daha bacarıqlı olduğunu, elmlə hər cür çətinlikləri aradan qaldırmağın asan asan və mümkün olduğunu sübut edər, yoxsulları hər necə olursa-olsun, öz balalarını oxutdurmağa cəlb edərdi.

H.B.Zərdabi «Əkinçi» qəzetinin redaktoru, milli mətbuatımızın banisi kimi tarixə daxil olmuşdur. O, 100 il əvvəl yaşayıb-yaratsa da, həmişə bizimlədir. Ulu öndər Heydər Əliyev «Azərbaycan milli mətbuatının yaranmasının 125 illiyi haqqında» 27 mart 2000-ci il tarixli fərma-

nında anadilli mətbuatımızın banisinin gördüyü işləri yüksək qiymətləndirmişdir: «Milli demokratik mətbuatın «Əkinçi» qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri – maarifləşmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması, Azərbaycanda milli-demokratik mətbuatın gələcək inkişafı üçün təməl daşları rolunu oynadı».

Məhz bu tarixi sənəddən sonra hər il iyulun 22-də Milli Mətbuat Günü təntənəli şəkildə qeyd olunur.

Həsən bəy Zərdabi əlçatmaz, ünyetməz zirvəyə ucalıb. O, yox ikən var, var olduğu üçün də həmişə tərəqqipərvər xalqımızla bir yerdədir.

QEYDLƏR


1. Məmmədov Z. Həsən bəy Zərdabi. Bakı: Uşaqgəncnəşr,1957.
2. Rüstəmov İ. Həsən bəy Zərdabi. Bakı: Gənclik,1969.
3. Köyüşov Z. Azərbaycan maarifçilərinin etik görüşləri. Bakı: Elm, 1960.
4. Tahirli Abid. Mənəvi borcumuzu, əql duyğularımızı oyadan gün. «Xalq qəzeti». 2006, 1 dekabr.
5. Abbasov İ. Millət sizə rəhmət oxuyacaq. «Xalq qəzeti», 2006, 21 iyul.


## ОСНОВОПОЛОЖНИК И ГОРДОСТЬ НАЦИОНАЛЬНОЙ ПЕЧАТИ


**И.С.АЛИЕВА**


**РЕЗЮМЕ**


XIX век занимает особое место в историческом развитии азербайджанского народа.

Среди прогрессивных людей, занимающие особое место в развитии науки, культуры и искусства, имя Гасан бека Зардаби звучит с большой гордостью.

В статье описывается богатое творчество выдающегося демократа Гасан бека Зардаби. Автор статьи основательно раскрывает богатейшее наследие выдающегося мастера слова.

Статья написана в доступном научном языке.


## THE FOUNDER, DIGNITU AND PRIDE OF OUR PRESS


**I.S.ALIYEVA**


**SUMMARY**


The great democrat and founder of our national press Hasan bay Zardabi's activity was in the second half of XIX and in the beginning of the XX centry. The first publication of newpapep "Ekinchi" (The Plongher) in Azerbaijan, development of enlightment and culture, opening new schools is closely connected with his name. The activity area of the well known publisher, with rich creative way was full of success. In the article some opportunities about Hasan bay's comprehensive activities are analysed. The most interesting thing in this article that we are satisfied is, that the author follows Hasan bay's works very attentively and from to time bases on his works professionally. As it is impossible to give the whole creative activities by Hasan bay Zardabi in the little article, the author was satisfied by given only the main parts of his creative activities.